**UOT 17:37.01**

***Müslüm Nəzərov***
***pedaqogika üzrə fəlsəfə doktoru,dosent***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***AZ 1000, Üzeyir Hacıbəyli, 68***
***E-mail:* muslimnazarov@mail.ru**

# TƏHSİLİN SOSİOMƏDƏNİ İNKİŞAF MƏRHƏLƏLƏRİ

**Xülasə:** Məqalədə sosiomədəni mühit həm makro, həm də mikro mühitdə bütün təhsil sisteminə də təsir göstərdiyi kimi, ailə və cəmiyyətin dini və əxlaqi dəyərləri, adət-ənənələri, mənsubluq bu və ya digər sosial təbəqəyə , qrupa və s. ümumiyyətlə cəmiyyətin təhsil sisteminə də təsir göstərdiyi diqqəti cəlb edir. Sosiomədəni hadisə olan təhsil problemlərinə yalnız təhsilin sosiomədəni inkişaf mərhələləri nöqteyi-nəzərdən yanaşmağın düzgünlüyü əsaslandırılır və bu yanaşmadan çıxış etməklə təhsil ictimai həyatın bütün sahələri ilə bağlı olan obyektiv təhsil ideyalarının inkişaf mərhələlri tam sistem kimi səciyyələndirilir, onun əsas məzmununun məhz cəmiyyətin mədəni dəyərlər sisteminin ayrılmaz tərkib hissəsi olan təhsil ideyalarında cəmləşdiyi vurğulanır.

**Açar sözlər:** təhsil, təhsil konsepsiyası, təhsil sferası, sosiomədəni inkişaf, sosial biliklər.

XX əsrin 90-cı illərindən baylayaraq, yəni Azərbaycan ikinci dəfə müstəqqilliyinə qovuşduqdan sonra təhsilinin inkişafı təhsili mənəvi dəyərlərlə zənginləşdirməklə sosiomədəni hadisə kimi dirçəldilməsi məsələsini gündəmə gətirilmişdir. Təhsilin təkamülünə bu cür yanaşma onun mahiyyətini sosiomədəni kontekstdə təhlil etmək zərurətini şərtləndirir. Sosial kateqoriya kimi təhsil şərhinə əsaslanaraq, qeyd etmək olar ki, onun vəziyyəti və fəaliyyəti cəmiyyətdə sosial əlaqələrin və münasibətlərin sistemi kimi müəyyən edilir.

Məliumdur ki,təhsil ictimai həyatın bütün sahələri ilə bağlıdır. Müxtəlif elmlər təhsilin öyrənilməsinə öz nöqteyi-nəzərindən yanaşırlar. İqtisadiyyat təhsilinin maddi baza sahələrini müəyyənləşdirir, fənlərin və peşələrin ixtisas istiqamətlərinin məzmunu şərtləndirir.

Fəlsəfədə “təhsil” anlayışı insanın formalaşmasının ümumi mənəvi prosesi mənasında işlənir və insanın mənəvi siması bu prosesin nəticəsidir. Təhsil həmçinin, mədəni-tarixi təzahür kimi**,** eyni zamanda millətlərin, xalqların, bəşəriyyətin zəngin mədəni irsinin toplanması və gələcək nəsillərə ötürülməsi, saxlanması vasitələri kimi də araşdırılır.

Psixologiyanı daha cox şəxsiyyətin formalaşmasında və onun psixikasında təhsilin təsiri problemləri maraqlandırır. Sosial psixologiya sosial təşkilat kimi, insanı təhsil çərçivəsində təlim fəaliyyətinin subyekt keyfiyyəti kimi araşdırır. Onu daha şox təhsil müəssisəsinin insan təbiətinə yadlaşmamaq, təlim fəaliyyətinin təşkilinin əsasına müəyyən qanun və sosial texnologiyaların tətbiqi məsələsi, təhsil sisteminin insanın özünüinkişaf və özünüaktuallaşdırmaq və onun normal sosial funksiyalaşdırma bacarıqlarını formalaşdırmaq maraqlandırır. Pedaqogika isə təhsili elmi biliklər və şəxsiyyətin dünyagörüşü və şəxsi keyfiyyətləri əsasında formalaşan, onun yaradıcılıq gücü və

bacarıqlarını inkişaf etdirən həyati bilik və bacarıqlar sisteminin öyrənilməsi prosesi və nəticəsi kimi anlayır.

Sosialogiyanı təhsilin sosial tərəfi maraqlandırır: belə ki, insanı təhsilinə görə, bu və ya digər sosial qruplara aid edirlər, məhz təhsili sayəsində cəmiyyətin sosial quruluşunda müəyyən mövqeyə malikolur, cəmiyyətdə müxtəlif obrazlı rolları mənimsəyir və yerinə yetirir. Təhsilin sosiologiyasını təhsilin sosial xarakterləri, sosial institutların, sosial makro və mikro mühitin ona təsirləri maraq- landırır.Sosiologiya sosial biliklər sistemindən təşkil olunub, 3 səviyyədən ibarətdir:

1. ümumisosiologi (ümuminəzəri) səviyyə;
2. xüsusi (şəxsi) sosioloji nəzəriyyə;
3. empirik sosioloji tədqiqat.

Orta səviyyənin xüsusi (şəxsi) sosioloji nəzəriyyəsi birinci səviyyənin ümumi nəzəri bazasına əsaslanır. Təhsilin sosiologiyası da bura aiddir.

Sosial təhsilin obyekti sosial təzahür kimi nəzərə çarpan təhsil sferasıdır: insanlar, onların təhsil sistemində birləşdirilməsi və təşkili. Bu təhsil proseslərinin funksiyalaşaraq inkişaf etdiyi sosial dairədir ki, burada da təyin olunmuş subyektlər müxtəlif obrazlı tədris məşğəllərində (oxuyaraq, öyrənərək,təlim prosesinə dəstək verərək), vəziyyətlərdə (situasiyalarda) hərəkət edir, insan münasibətlərinin təyin olunmuş sistemi, institusional və qeyri institusional təşkilatlarda birləşərək məşğələlərin gedişində iştirak edir. Deməli, təhsil sosial təbiəti ilə birlikdə öyrənmənin obyektidir.

Beləliklə, XX əsrin əvvəllərində məhz Avropada, təhsilin sosiologiyasının perspek-tivlərindən asılı olan tədqiqat işi yerinə yetirildi. Lakin təhsilin sosiologiyasının inkişaf mərkəzinə nasistlərin gəlməsiilə əlaqədar olaraq, bu sahə bir müddət ABŞ-da yerləşdi. Belə qəbul olunmuşdur ki, təhsilin sosiologiyasının proqramlı səviyyəsi amerika alim-ləri L.Uordun "Dinamik sosiologiya"(6) və C.Dyuinin "Məktəb və cəmiyyət"(3) adlı tədqiqatlarında ifadə olunmuşdur.

Lester Frank Uord (1841-1913) təhsilin sosiologiyasının inkişafına digər amerika sosioloqlarından daha çox təsir etmişdir. "Dinamik sosiologiya" (6) adlı tədqiqatında (1891 - ci ildə artıq bu elmi iş rus dilinə tərcümə olunaraq, nəşr olunmuşdur) L.Uord ilk dəfə olaraq, təhsilin öyrənilməsi məsələsini cəmiyyətin sabit təzahürü kimi təqdim etmişdir.

O, təhsili ilk növbədə sosial inkişafın aləti, insan xoşbəxtliyinin əsas məhsulu hesab edirdi. İnkişafın təmin olunması üçün bu əhəmiyyət hamı üçün əlçatan olmalı-dır,bunun üçün də məktəb təhsili pulsuz və məcburi olmalıdır. Sosial faydalılığın krite-riyaları təhsilin keyfiyyətinin əsas kriteriyası olmalıdır, bu mənada sosial təhsil əsas kriteriya olmalıdır. Amerika sosioloqu cəmiyyətin transformasiyasında məktəbin xüsusi rolunu qeyd edir və onun sosial tərəfdən öyrənilməsinə çağırış edir.

L.Uordun sosial nəzəriyyəsi sosial inkişafın təhsil sisteminin öyrənilməsinə yönələn dörd "dinamik prinsipi"nə əsaslanır.

Birinci prinsip - insanların potensial imkanlarında fərqləri xarakterizə edir.

Ikinci prinsip- innovasiyanı xarakterizə edir ki,bu da həmişə inkişafa aparır. Tədrici, xüsusilə də nəzarət altında olan innovasiya daha mühümdür.

Üçüncü prinsip - iradəli hərəkət bacarıqlarını xarakterizə edir, bu da insan həyatı və onu əhatə edən mühitin dəyişiliklərinin saxlanılmasında iştirak edən sosial səylərdə özü-nü büruzə verir.

Dördüncü dinamik prinsip–təkamülün məqsədyönümlü prinsipidir ki,onu da ağıl cəmiyyətin bütün dinamik qüvvələrini (insan arzuları) konstruktiv şəkildə istifadə etmə-lidir.

L.Uorda görə, yüksək inkişaf etmiş intellekt insana doğulanda verilmir, bu əsasən təhsilin nəticəsi kimi yaranır. Buna görə də təhsil sisteminin təkmilləşdirilməsi cəmiy-yətin və insanların təkmilləşdirilməsinə gətirib çıxarır. Buna görə də, təhsil cəmiyyətin məqsədyönlü təkamülündə fundamental rol oynayır(6).

Sosioloji biliklərin yeni səpkidə formalaşmasına və inkişafına Con Dyuinin (1859-1952) prakmatik təhsil konsepsiyasının əhəmiyyətli dərəcədə təsiri olmuşdur.

Amerika alimi "Məktəb və cəmiyyət" (3) adlı tədqiqatında (nəzərə çatdıraq ki, bu iş xarici sosial təhsil sahəsində yeganə əsərdir ki, istinadsız yazılıb) məktəbin sosial prob-lemlərinə müraciət edib. Onun diqqət mərkəzində aşağıdakı məsələlərə nəzər yetirilib: məktəbin ictimai həyatla əlaqəsi; məktəb təhsilinin uşağın maraq və təlabatlarına uyğun-luğu; təhsilin fərdiləşməsi; məktəbdə əmək təlimi vasitəsilə təhsilin effektivliyinin yük-səldilməsi.O, böyüklərin və uşaqların həyat təcrübələrinə, eləcə də qəbul olunmuş eh-kam və qayda-qanunların mütləq bilik konsepsiyası ilə əvəz edilməsinə əsasən məktəbin dəyişdirilməsi ideyasını müdafiə edirdi. C.Dyuinin fikrincə, tərbiyənin məqsədi arzu və maraqlarının həyata keçirilməsini ehtimal edən şəxsiyyətin özünüreallaşdırması yar-dımda özünü büruzə verir. Özünüreallaşdırmanın kriteriyaları fərdin ətraf mühitə uy-ğunlaşmasına xidmət edir, eyni zamanda insanın ətraf mühitə qarşı cavab reaksiyasıdır. Hər bir uşaq səhvlər, nümunələr və müəyyən olunmuş

hərəkətlər əsasında adaptasiya olunur. Məhz bu mərhələdə ona məktəb tərəfindən kömək, yardım lazımdır, belə ki, uşağın təcrübələrinin dəyişdirilməsi, etdiyi səhvlərin azaldılması və yaxud bu səhv- lərdən kənarlaşdırılması nəzərdə tutulur. Dyuyiyə görə, uşaqların təcrübələrinin faydalı məzmunla zənginləşdirilməsi ənənəvi pedaqoji təsirdən və biliklər haqqında olan məlumatlardan daha mühüm məsələdir. Başqa sözlə desək, məktəb həyata maksimal dərəcədə yaxınlaşmalıdır və "miniatürdə cəmiyyət" olmalıdır. Beləliklə, amerikalı alim tərəfindən işlənilmiş təhsil konsepsiyasının praqmatizmi bunlardan ibarət oldu.

Təhsil sisteminin mövcud cəmiyyətdən asılılığını etiraf edən C.Dyuyi qeyd etmişdir ki, təhsil sosial inkişafın əsas vasitəsidir. Onun fikrincə, yeniliklərin, ən yaxşıların dün-yaya yaxınlaşması funksiyasını məktəb yerinə yetirir. Məhz bu mövqedən çıxış edərək, diqqəti cəmiyyətin tələbatlarından uşaqların tələbatlarına yönəltməyə çalışırdı. Elə buradan da belə nəticəyə gəlinir ki, hər şey uşaqların maraq və arzularına tabe olmalıdır.

Ümumilikdə, XIX əsrin sonu XX əsrin əvvəllərində Avropa və Amerikada təhsilin sosial anlayışına həsr olunmuş çoxlu elmi əsərlər meydana gəlmişdir. Onların müəllif-ləri içərisində Ç.Kuli (9), P.Bart (1), Q.Spenser (7), Q.Tard (8), F.Qiddinqs (13), və digərlərini xüsusilə qeyd etməliyik. Bu alimlərin nəzəri irsləri Avropa, ABŞ və Rusiyada sosial təhsilin formalaşmasında mühüm rol oynamışlar.

Təhsilin sosiologiyasının xarici ölkələr üzrə tarixi göstərir ki, bir çərçivə daxilində kateqorial aparatın xüsusiyyətləri, metodları, məsələləri və problemləri ilə fərqlənən bir neçə elmi məktəbin ənənələri inkişaf etmiş və saxlanılmışdır. Bir sıra yanaşmalar nəinki fərqlənirlər, eləcə də bəzən nəzəri cəhətdən bağlı ola bilərlər, ona görə də heç təsadüfi deyildir ki, eyni tədqiqatçıların adları müxtəlif elmi məktəblərdə xatırlana bilər.Təhsilin sosiologiyasında əsas yanaşmalara aşağıdakılar aiddir:

1. mənəvi (moralistik) yanaşma - onun üçün sosial inkişafın əsas nailiyyəti kimi təhsilə inam xarakterikdir ( L.Uord (6), C.Dyuyi (3) və b.)
2. institusial yanaşma–diqqət mərkəzində təhsilin və digər sosial institutların qarşılıqlı əlaqəsidir (C.Siryamaki, C.Dyuyi və b.)
3. funksionalist – təhsilə müəyyən funksiyalara malik sosial institut kimi baxır (E.Dyurkqeym (4), T.Parsons (12), P.Merton (10) və b.).
4. konflikttologik – burada isə təhsilə sosial differensiyaların mexanizmi kimi baxılır (Q.Zimmel (5), T.Veblen(2) və b.)

Sosiomədəni mühit həm makro, həm də mikro mühitdə bütün təhsil sisteminə də təsir göstərir. Burada söhbət ailə və cəmiyyətin dini və əxlaqi dəyərləri, adət-ənənələri, mənsubluq bu və ya digər sosial təbəqəyə , qrupa və s ümumiyyətlə cəmiyyətin təhsil sistemini əhatə edir.

Təhsil sistemi yaradaraq, vətəndaş, bununla da ictimai həyatın siyasi səhnə sahəsinə təsir göstərir. O isə sosial - peşəkar cəmiyyətin strukturunun mühüm vasitəsi olan sosial mobillik və sosial hərəkəti ifadə edir.

Əmək resurslarının keyfiyyəti təhsilin səviyyəsindən, deməli cəmiyyətin və iqtisadiyyatın vəziyyətindən birbaşa asılı olmasına baxmayaraq, təhsil - cəmiyyətin inkişafına və fəaliyyət göstərməsi üçün fəal təsir göstərməyə qadirdir.

**Ədəbiyyat:**


1. Барт Р. Избранные работы: Семиотика: Поэтика [: из книги «Мифологии», «Литература и метаязык», из книги «О Расине»; «Литература сегодня»] / пер. с фр., сост., общ. ред. и вступ. ст. Г. К. Косикова. — М.: Прогресс, 1989. — 616 с.
2. Веблен Т. Теория праздного класса. – Прогресс, 1984.
3. Дьюи Д. Школа и общество. Пер. с англ. М, 1925 С. 25
4. Дюркгейм Э. О разделении общественного труда. -М.: Наука, 1991.– 572 с.
5. Зиммель Г.Избранное:В2т.М.,1996.Т.2
6. Уорд Л. Динамическая социология: В 2 т. М., 1991.
7. Спенсер, Г.Социальная статика / Пер. с англ. – К.: Гама-Принт, 2013. – 496 с.
8. Тард Г.Законы подражания. Москва. "Полифакт", 1990, 80 с.
9. Кули Ч. Х. Человеческая природа и социальный порядок / пер. с англ. под ред.А. Б. Толстова. – М. : Идея-Пресс, Дом интеллектуальной книги, 2000. – 320 с
10. Мертон Р. К. Социальная теория и социальная структура. — М.: АСТ:АСТМОСКВА:ХРАНИТЕЛЬ,2006. — 873 с
11. Nəzərov M.H.,Babayeva A.R. Mədəniyyət və təhsilin ümumi əsasları, (Dərs vəsaiti), Baki, 2016, -200s.
12. Парсонс Г. Система современных обществ. -М., 1998.-270с.

13. Giddings, F. H. (1896) The Principles of Sociology : An Analysis of the Phenomena of Associationand of Social Organization. 3rd edn. N. Y. ; L. : MacMillan & Co., Ltd. xxvi, 476 p.

**Муслим Назаров**

**Социокультурные этапы развития образования**

**Резюме**

В данной статье автор анализирует личные наблюдения в области развития социокультурной динамики и ее взаимодействие с образованием. Исследователь особо подчеркивает их взаимосвязь на разные слои населения. Также автор затрагивает духовные, религиозные и исторические ценности, которые оказывают свое влияние в развитии образовательной системы в целом.

**Ключевые слова:** образование, концепция образования, сфера образования, социокультурное развитие, социальные знания.

**Muslim Nazarov**

**Sociocultural stages in the development of educationSummary**

In this article, the author analyzes personal observations in the field of development of socio- cultural dynamics and its interaction with education. The researcher especially emphasizes their interrelation on different layers of the population. The author also touches on spiritual, religious and historical values that exert their influence in the development of the educational system as a whole.

**Key words:** education, the concept of education, the sphere of education, social and cultural development, social knowledge.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 24.10.2017 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 31.10.2017Məqalənin çapa qəbul olunma tarixi: 17.11.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
kulturologiya üzrə fəlsəfə doktoru, dosent Xaləddin Sofiyev
**ADMİU-nun Elmi Şurasının 21 dekabr 2017-ci il, 04 saylı qərarı ilə çap olunur**